## Milli mətbuat – 146

***Xalqımızın milli-mənəvi dəyərlərini, adət-ənənələrini, istək və arzularını, keşməkeşli həyatının bütün sahələrini daim öz səhifələrində əks etdirən və əsası Həsən bəy Zərdabi tərəfindən qoyulmuş Azərbaycan milli mətbuatı çox şərəfli və zəngin inkişaf yolu keçmişdir. Xalqımızın görkəmli mütəfəkkirləri, publisistləri, jurnalistləri, yazıçıları və satirikləri mətbuat vasitəsilə milli şüurun, mənəviyyatın və mədəniyyətin formalaşmasına və inkişafına güclü təkan vermişlər.***

**Ulu öndər Heydər Əliyevin Milli Mətbuat Günü münasibətilə jurnalistlərə ünvanladığı təbrikdən**
**22 iyul, 1996-cı il**



***Mən cəmiyyətdə gedən prosesləri yüksək qiymətləndirirəm. Azərbaycan cəmiyyəti milli ideya ətrafında birləşmişdir. Əlbəttə ki, burada mətbuatın rolu həddindən artıq əhəmiyyətlidir. Azad mətbuatın artıq formalaşması və uğurla fəaliyyət göstərməsi demokratiyanın əsas əlamətlərindən biridir. Azərbaycanda bütün başqa azadlıqlar da – söz azadlığı, vicdan azadlığı, sərbəst toplaşma azadlığı təmin olunur. Azərbaycanda yüzlərlə qəzet, jurnal, 50-dən çox televiziya və radio kanalı fəaliyyət göstərir.***

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

# Siz – azərbaycanlı jurnalistlər ona görə xoşbəxtsiniz ki...

***Bayramın mübarək, Azərbaycan mətbuatı! Otuz il uğrunda əsgər qardaşlarına çiyin-çiyinə çalışdığın möhtəşəm qələbən mübarək Vətənin mübariz jurnalistlər ordusu. Bəli, siz jurnalistlər həqiqətən haqqın, ədalətin, Vətənin əsgəri, ordususunuz. Ordu olmasaydınız, bu qədər şəhid verməzdiniz. Mənziliniz mübarək, jurnalistlər ordusunun şəhid əsgərləri olan Məhərrəm İbrahimov və Sırac Abuşovun ailə üzvləri. Bu mətbuat günündə nə gözəl xəbər eşitdik. Dövlət başçımız sizin ailənizə mənzil hədiyyə etdi.***

Bəli, bu gün xalqımıza və dövlətimizə möhtəşəm üzağlığı gətirən şanlı qələbəmizdə jurnalistlər ordusunun əsgərləri–telejurnalist, Milli Qəhrəman Çingiz Mustafayev, müxbir, Milli Qəhrəman Salatın Əsgərova, telejurnalist, Milli Qəhrəman Ali Mustafayev, AzTV-nin operatoru, Milli Qəhrəman Fəxrəddin Şahbazov, AzTV-nin operatoru, yüksək təltiflərə layiq görülmüş Sırac Abışov, AZƏRTAC-ın jurnalisti Məhərrəm İbrahimov kimi həmkarlarımız canını və qanını əsirgəməyiblər. Əslində, onlar bizdən əvvəlki nəsillərin yaratdığı mübarizlik yolunu, fədakarlıq ənənəsini davam etdiriblər. Məsələn, 1941–45-ci illər müharibəsində indi bizim çalışdığımız qəzetin baş redaktoru olmuş Ağababa Rzayev Reyxstaqın üzərinə öz adını yazmış, kollektivin döyüşə yollanan üzvlərindən bir neçəsi cəbhədən qayıtmamışdı. Yəni ulu öndərin xatırlatdığı kimi, jurnalistlər daim öndə olmuşlar və bu gün də öndədirlər.

Ancaq bu gün zaman daha sürətlə gedir və mətbuatın, jurnalistikanın fəaliyyətini həm nizamlamaq, həm də stimullaşdırmaq kimi vəzifələr ortaya çıxır ki, həmin vəzifələr də daim öz həllini tapır. Biz şadıq ki, şanlı qələbədən cəmi iki ay keçmiş – bu il yanvarın 12-də dövlət başçımız cəmiyyət həyatının bütün sahələrində uğurla davam etdirilən islahatlar prosesinin mətbuat sahəsinə də gətirilməsi üçün mühüm bir fərman imzalamışdır. Həmin sənədlə yaradılmış Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ( ARMEİA) Nizamnaməsinin ümumi müddəalar bölməsinin birinci bəndində göstərilir ki, ARMEİA medianın inkişafının dəstəklənməsi, media sahəsində mütəxəssislər hazırlanması və onların əlavə təhsilinin təşkili, audiovizual, çap, onlayn media subyektlərinin və informasiya agentliklərinin, habelə jurnalistlərin və digər media işçilərinin fəaliyyətinin, eləcə də, media sahəsində yeni informasiya-kommunikasiya texnologiyalarının və innovasiyaların tətbiqinin stimullaşdırılması istiqamətində fəaliyyət göstərən publik hüquqi şəxsdir. Yəni islahatların bizim sahəyə gətirilməsi təkcə jurnalistlər və mətbuat orqanları üçün deyil, həm də dövlətimiz və cəmiyyətimiz üçün də yeni töhfələr vəd edir.

Əslində bu islahatların da təməli məhz ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuşdur. Belə ki, Heydər Əliyevin milli mətbuatımızın inkişafına xidmət edən mühüm addımlarından biri 1999-cu ildə "Kütləvi İnformasiya Vasitələri haqqında" Qanunu təsdiqləməsi oldu. Bu sənədlə ölkəmizdə yeni mətbuat orqanlarının təsis olunması prosesi xeyli asanlaşdırıldı. Sonra – "2000 –2001-ci illərdə kütləvi informasiya vasitələrinin maddi-texniki şəraitinin yaxşılaşdırılması üçün Tədbirlər Proqramı" təsdiq olundu. Vətəndaş müraciətlərinə baxılması, informasiyaların mühafizəsi, informasiya azadlığı, radio-televiziya yayımları, İTV və radio haqqında müxtəlif qərar və qanunlar qəbul etməklə KİV-in fəaliyyətinin genişləndirilməsi və inkişafı təmin edildi.

Ümummilli lider Heydər Əliyevin 2000-ci ildə imzaladığı fərman Azərbaycan milli mətbuatının yubileylərinin ölkə səviyyəsində qeyd edilməsi, mətbuat-dövlət münasibətlərinin möhkəmlənməsində həlledici rol oynadı.

Bu gün isə əminliklə demək olar ki, mətbuat ölkədə ən sürətlə inkişaf edən, informasiya-kommunikasiya texnologiyalarının tətbiqi ilə gündən-günə təkmilləşən fəaliyyət sahələrindən biridir. Ölkə mətbuatı müasir informasiya cəmiyyəti quruculuğunda, milli-mənəvi dəyərlərin qorunub saxlanması və təbliğində, o cümlədən, tədris və maarifləndirmə sahəsində mühüm rol oynayır. Dövlət başçısı İlham Əliyev son illərdə mütəmadi olaraq KİV-in inkişafına təkan verən, onun müstəqil fəaliyyəti üçün imkanlar yaradan addımlar atır. Prezidentin sərəncamları ilə milli mətbuatımızın 135, 140 və 145 illik yubileyləri ölkə miqyasında geniş qeyd olunmuşdur.

"Əməkdar jurnalist" fəxri adının bərpa olunması, son 18 ildə Vətənə və xalqa layiqincə xidmət edən həmkarlarımızın xeyli hisəsinin bu ada layiq görülməsi, orden-medallarla təltif olunması mətbuata göstərilən dövlət qayğısının təzahürüdür. Bundan başqa, mətbuat təmsilçilərinin sosial-məişət şəraiti də daim yaxşılaşdırılır. Belə ki, Prezident İlham Əliyev jurnalistlər üçün tikilmiş ikinci binada Milli Mətbuat Günü münasibətilə mənzillərin paylanması mərasimində iştirak edərkən ona məlumat vermişdilər ki, bu binada 255 mənzil var. Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan mətbuat işçilərinin sosial müdafiəsinin gücləndirilməsinə dair əlavə tədbirlər haqqında" 2013-cü il 22 iyul tarixli Sərəncamı ilə tikilən 3 bloklu, 17 mərtəbəli bu binanın ümumi inşaat sahəsi 34 min kvadratmetrdir. Binada 9 bir otaqlı, 144 ikiotaqlı, 93 üçotaqlı və 9 dördotaqlı mənzil var. Binanın həyətində idman meydançası yaradılıb, geniş abadlıq işləri görülüb. Mənim də manzil sahibi olduğum birinci binada isə 155 mənzil var.

Həmin tədbirdə əhatəli çıxış edən dövlət başçımız "bir sirri" də açaraq demişdi ki, jurnalistlər bəlkə də özləri də bilmədən mənim köməkçilərimdirlər: "Jurnalistlər fəaliyyətləri ilə inkişafa öz töhfələrini verirlər. Cəmiyyəti incidən, narahat edən problemləri üzə çıxarırlar. Sizə deyə bilərəm ki, mən bəzi hallarda hansısa xoşagəlməz hadisə ilə bağlı məlumatı mətbuatdan əldə edirəm... İnsanları narahat edən məlumatlar haqqında mən mətbuatdan da xəbər tuturam, dərhal reaksiya verirəm. Dövlət məmurları və yaxud digər şəxslər, qüsurlara yol verən şəxslər bilirlər ki, Azərbaycanda söz və mətbuat azadlığı imkan verməyəcək ki, onlar işdə hansısa qüsurlar buraxsınlar. Ona görə jurnalistlər bəlkə də özləri də bilmədən mənim köməkçilərimdir. Buna görə də mən sizə minnətdaram. Əminəm ki, siz gələcəkdə də bütün cəmiyyəti narahat edən, incidən məsələlər haqqında yazacaqsınız, harada hansı ədalətsizlik var, qanunsuzluq var, dərhal operativ reaksiya verəcəksiniz, cəmiyyətin və dövlət orqanlarının diqqətini bu məsələlərə cəlb edəcəksiniz".

Sonda daha bir mühüm fakta diqqət yönəltmək istərdim. Belə ki, bu il fevralın 26-da Azərbaycan Prezidenti İlham Əliyev yerli və xarici media nümayəndələri üçün mətbuat konfransı keçirirdi. Bu sətirləri həmin gün iki əcnəbi həmkarımızdan eşitdiyimiz fikirlərlə tamamlamaq yerinə düşür.

Birinci, Böyük Britaniyadan olan müstəqil jurnalist bilavasitə dövlət başçımıza xitabən dedi: " Düşünürəm ki, mətbuat konfransının uzunluğuna görə Siz artıq dünya rekorduna imza atmısınız. Mən 25 ki, ildir jurnalistika ilə məşğul oluram, ancaq hər hansı bir Prezidentin 4 saatda bu cür mətbuat konfransı aparmasının şahidi olmamışdım".

İkinci, adını bilərəkdən çəkmədiyim qonşu ölkələrdən birinin mətbuat təmsilçisi də həmin gün bizimlə görüşündə maraqlı bir fikir söyləmişdi: "Siz– azərbaycanlı jurnalistlər ona görə xoşbəxtsiniz ki, mətbuata bu şəkildə açıq olan dövlət başçınız var!"

***İttifaq MİRZƏBƏYLİ,***
***Əməkdar jurnalist,***
***"Xalq qəzeti"***